*"Təsdiq edirəm"*
*Naxçıvan Dövlət Universitetinin*
*Rektoru / / E.S.İsayev*
*"22" sentyabr 2023-cü il*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN İNKLUZİV TƏHSİL MƏRKƏZİNİN

# ƏSASNAMƏSİ

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Naxçıvan Dövlət Universitetinin (bundan sonra-Universitet) ictimai əsaslarla fəaliyyət göstərən İnklüziv Təhsil Mərkəzi (bundan sonra-Mərkəz) əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr üçün inkişaf imkanları və şəraiti təmin edən, onların təhsilə inteqrasiyasını dəstəkləyən bir strukturdur. Mərkəz fiziki imkanları məhdud olan tələbələrin təhsil və təlim resurslarından istifadə etmələrinə, bacarıq və qabiliyyətlərinin inkişafına, həmçinin potensialın reallaşdırılmasına yardım göstərir.

**1.2.** Mərkəz Universitetin Pedaqoji fakültəsində yerləşir və "Pedaqogika və psixologiya" kafedrası ilə əlaqəli şəkildə fəaliyyət göstərir.

**1.3.** Bu Əsasnamə Universitetin struktur bölməsi olan və Universitet nəzdində inkişaf fəaliyyətlərinin həyata keçirilməsi üçün yaradılan Mərkəzin fəaliyyətini tənzimləyir.

**1.4.** Mərkəz əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr üçün inklüzivlik, bərabərlik, hüquqa əsaslanan yanaşma və ədalətlilik kimi prinsiplərə əsaslanır. Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin təhsil mühitində tam iştirakını dəstəkləmək üçün onların ailələri ilə əməkdaşlıq edir. Əlilliyi

olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin akademik bacarıqlarını dəstəkləmək üçün texnologiyaya əsaslanan üsullar tətbiq edir.

**1.5.** Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, beynəlxalq hüquqi aktları, "Təhsil haqqında" və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunlarını və digər normativ hüquqi aktları, Universitetin Nizamnaməsini, eləcə də bu Əsasnaməni rəhbər tutur.

**1.6.** Mərkəzin maddi ehtiyatları və avadanlıqları layihə çərçivəsində yaradılır və layihə başa çatdıqdan sonra Universitetin mülkiyyəti hesab edilir. Mərkəzin fəaliyyəti müxtəlif könüllü ianələr, proqramlar və layihələrlə də dəstəklənir.

## II. MƏRKƏZİN MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ FƏALİYYƏT SAHƏSİ

**2.1.** Mərkəzin əsas məqsədi fiziki imkanları məhdud olan tələbələr üçün təhsil imkanlarını və bütövlükdə onların təhsilə inteqrasiyasını təbliğ etmək, onlara Universitetin xidmətlərindən və təhsil proqramlarından istifadə etmək imkanları yaratmaqdır.

**2.2. Mərkəzin aşağıdakı vəzifələri vardır:**

**2.2.1.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin təhsilə cəlb olunmasına şərait yaratmaq;

**2.2.2.**Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələri təhsil imkanları və resursları ilə təmin etmək;

**2.2.3.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr üçün könüllü əsasla təlimlər və kurslar təşkil etmək;

**2.2.4.** İnklüziv Təhsil Mərkəzləri ilə təcrübə mübadiləsi aparmaq.

**2.3.** Mərkəz öz fəaliyyətində Universitetin rektoruna tabedir və onun qarşısında cavabdehlik daşıyır.

**2.4.** Mərkəz aşağıdakı fəaliyyətləri həyata keçirir:

**2.4.1.** Müvafiq qanunvericilik çərçivəsində lazımi icazələr almaq şərti ilə əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin ehtiyac duyulan sahələr və fənlər üzrə təhsil, şəxsi və peşəkar inkişafını dəstəkləmək,

**2.4.2.** Toxunma, audio, brayl, mürəkkəblə çap və elektron nəşrləri nəşr etmək və mərkəzin daxilində kitabxana yaratmaq;

**2.4.3.** Mərkəzdə inklüziv təhsil sahəsi üzrə respublika və beynəlxalq mütəxəsislərlə görüşlər təşkil etmək;

**2.4.4.** Universitetdə əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin gündəlik, təhsil, sosial, mədəni və peşə imkanlarını asanlaşdıracaq dəstəkləyici texnologiyalar və materialların istifadəsi üçün şərait yaratmaq;

**2.4.5.** Mərkəzin məqsədinə uyğun olaraq əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr haqqında lazım olan bütün sahələrdə və mövzularda araşdırma aparmaq, müəllif hüquqları ilə qorunan əsərlər hazırlamaq, tərcümələr etmək, sorğular keçirmək və məlumat bazası yaratmaq;

**2.4.6.** Mərkəzin məqsədinə uyğun olaraq əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələri dəstəkləyəcək texnoloji inkişafları həyata keçirmək və sağlam təhsil mühiti yaratmaq;

**2.4.7.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin ailələrini mütəmadi olaraq məlumatlandırmaq və maarifləndirməni artırmaq məqsədilə mərkəz daxilində və ya müstəqil şəkildə təşkilatlanmağa təşviq etmək.

**2.4.9.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin problemləri və onların həlli yolları ilə bağlı ictimaiyyəti maarifləndirmək və ictimai rəy yaratmaq, mərkəzi təbliğ etmək və ictimaiyyəti məlumatlandırmaq;

**2.4.10.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin təhsili üzrə zəruri infrastruktur təmin edildiyi təqdirdə onların sinifdənxaric və məktəbdənkənar məşğulluğu və peşəkar inkişafı qarşısındakı maneələri müəyyən etmək və onların aradan qaldırılması üçün həll yolları hazırlamaq;

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**2.4.11.** Ali təhsilin bütün səviyyələrində Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin təhsil və peşəkar inkişafına töhfə vermək, dəstəkləmək və həvəsləndirmək məqsədilə təqaüdlər vermək, təcrübə imkanları yaratmaq və maddi yardım göstərmək;

**2.4.12.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr üçün təhsilin bütün sahələrində və milli və beynəlxalq layihələr hazırlamaq və həyata keçirmək;

**2.4.13.** Mərkəzin fəaliyyətini davam etdirmək və layihələrini həyata keçirmək üçün lazım olan inzibati, texniki və yardımçı kadrları və ekspert kadrları işə götürmək;

**2.4.14.** Mərkəzin məqsədlərinə uyğun olaraq açıq və qapalı zal iclasları, simpoziumlar, panellər, konfransların keçirilməsi, buklet və flayerlərin paylanması, afişa və pankartların asılması kimi tədbirlər təşkil etmək;

**2.4.15.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin bütün sahələrdə (kitablar, internet saytları, televiziya kanalları və s.) informasiyaya çıxış imkanlarını artırmaq, qarşıya çıxan maneələrin aradan qaldırılması üçün həyata keçirilə bilən layihələr hazırlamaq, bu istiqamətdə hazırlanmış layihələrdə iştirak etmək, təşəbbüs göstərmək və tərəfdaş olmaq və ya onlara dəstək olmaq;

**2.4.16.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrə qarşı maddi və mənəvi sui-istifadə hallarına, hər cür müsbət və ya mənfi ayrı-seçkiliyə qarşı mübarizə aparmaq;

**2.4.17.** Mərkəzin məqsədlərinə uyğun olaraq bütün növ xidmətlərin göstərilməsi üçün tədris, tibbi, məsləhət, hüquq, sosial və digər bütün zəruri ehtiyaclarına nəzarət etmək ;

**2.4.18.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələrin akademik, təhsil, mədəniyyət, incəsənət, idman, sosial, iqtisadi və peşəkar sahələrdə özlərini inkişaf etdirmələrini təmin etmək üçün qanunvericiliklə icazə verilən bütün növ fəaliyyətləri əlçatan şəkildə həyata keçirmək;

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**2.4.19.** Əlilliyi olan şəxs və sağlamlıq imkanlarından məhdud tələbələr üçün elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyasına əsaslanan proqramlar hazırlamaq.

## III. MƏRKƏZİN STRUKTURU VƏ İDARƏ EDİLMƏSİ

**3.1.** Mərkəzin strukturu Universitetinin rektoru tərəfindən təsdiq edilir.

**3.2.** Mərkəzin direktoru və digər məsul şəxsləri universitet rektoru tərəfindən 5 (beş) əsas və 4 (dörd) əvəzedici üzv olmaqla təyin edilir.

**3.3.** Direktor vəzifə bölgüsü apararaq koordinator, köməkçi və katib vəzifələrini müəyyən edə bilər.

**3.4.** Mərkəzin koordinatoru Mərkəzin fəaliyyətini həyata keçirmək məqsədilə müvafiq şəxsləri cəlb edə bilər.

**3.5.** Mərkəzin məsul şəxsləri ilkin tərkibindən istefaya və ya digər səbəblərə görə vəzifədən azad edilərsə Mərkəz direktorunun əmri ilə əvəzedici üzvlərin iclasa çağırılması məcburidir.

**3.6.** Direktor aşağıdakı vəzifələri yerinə yetirir:

**3.6.1.** Mərkəzi təmsil etmək;

**3.6.2.** Mərkəzin illik iş planını hazırlamaq və Universitet Elmi Şurasının təsdiqinə təqdim etmək;

**3.6.3.** iş planı planının nəticəsilə bağlı hesabat hazırlayır və Universitet Elmi Şurasına təqdim edir.

**3.6.4.** qəbul edilmiş qərarların icrası;

**3.6.5.** Mərkəzin illik iş planını həyata keçirmək üçün öz səlahiyyətləri daxilində Universitet rektoru ilə razılaşdırılaraq qərar qəbul etmək və həyata keçirmək;

**3.6.6.** Mərkəz kordinatoruna qanunvericiliyə uyğun tapşırıqlar vermək;

**3.6.7.** qanunverciliyə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ